# Görkəmli şəxsiyyətlər Əhməd Cavad haqqında

Azərbaycanın gözəl himni var. Sevindirici haldır ki, bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnimizin sözlərini Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir. Mən xarici ölkələrə səfər edərkən hər yerdə iki himn çalınır – Azərbaycanın himni, bir də getdiyimiz ölkənin himni. Hər ölkənin himni özünə əzizdir. Öz xalqının musiqisini, mənəvi xüsusiyyətlərini əks etdirir. Bu, təbiidir. Ancaq mən hər yerdə müqayisə edib görürəm ki, bizim himnin müəllifləri bu himni nə qədər böyük məharətlə yaradıblar. Hər dəfə xarici ölkələrdə bu himni dinləyərkən mən yenidən iftixar hissi duyuram.

**Heydər Əliyev,**
***Ümummilli Lider***

Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur.

***

Xalqımızın müstəqillik ideallarına bütün həyatı boyu sadiq qalan Əhməd Cavad Azərbaycan poeziyasında yeni bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Şairin zəngin yaradıcılığı milli azadlıq və istiqlal uğrunda mübarizə motivlərinin aparıcı mövqeyi ilə səciyyələnərək dövrün ictimai-siyasi mənzərəsini dolğun əks etdirir.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***

O, şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı istiqlal mübarizəsinə bir ordudan daha çox xidmət göstərdi. Onun qələmi minlərlə süngüyə bərabər idi.

**Məhəmməd Əmin Rəsulzadə,**
***AXC lideri***

Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir. “Göygöl” doğrudan doğruya Azərbaycan ədəbiyyatının incisidir.

**Səməd ağa Ağamalıoğlu,**
***dövlət xadimi, publisist***

Əhməd Cavad Azərbaycanın böyük milli şairi olaraq Azərbaycanda yaşamaqdadır, yaşayacaqdır da... O, bunu bilirdi. O, bilirdi ki, qırmızı rus terrorunun qurbanı olacaq. Ancaq o, ölümün maddi anlamda olacağını və Azərbaycan tarixində heç bir zaman ölməyəcəyini də bilirdi.

**Hüseyn Baykara,**
***araşdırmaçı-tədqiqatçı, publisist***

"İntibah"- deyəndə ilkin xatırlanan Nizami olur. "Məhəbbət" deyiləndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür.

Üçrəngli bayraq emblemi var tariximizdə. Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur.

**Yaşar Qarayev,**
***professor***

Ə.Cavad Azərbaycan xalqını bolşevik-daşnak əsarətindən xilas etmək üçün gəlmiş türk ordusunu öz əsərlərində dərin səmimiyyətlə qarşılayır, onun təkcə azərbaycanlılar qarşısında deyil, bütün türklər və tərəqqipərvər dünya qarşısında tarixi xidmətlərini tərənnüm edirdi.

***

Cəlladlar öz qara əməllərini bir qayda olaraq gizlincə icra edir, xalq arasında böyük nüfuza malik olan görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərini xəlvətcə ilim-ilim itirirdilər. Ə. Cavadın da başına gələn konkret faciələrdən (nə zaman və harada edam edildiyindən) uzun illər boyu xalqın xəbəri olmamış, yəni onun ömür sapının harada, hansı şəraitdə, nə vaxt və kimin əlilə qırıldığı haqqında ictimaiyyət üçün bir sətir də olsa məlumat dərc edilməmişdi.

**Bəkir Nəbiyev,**
***akademik***

Yaradıcılığının elə ilk nümunələrindən söz sərrafı olan, ədəbielmi fikir adamlarının diqqətini cəlb edən Əhməd Cavad tezliklə istedadlı şair, alovlu vətəndaş, içtimai xadim, xeyirxah və təəssübkeş insan kimi məşhurlaşaraq milyonların qəlbində özünə yer tapmışdır.

**Alxan Bayramoğlu,**
***filologiya elmləri doktoru***

Hər bir sənətkarın, hər bir insanın xoşbəxtliyi də, bədbəxtliyi də olur. Cavad ona görə xoşbəxt idi ki, tale ona böyük bir istedad, coşğun bir ilham vermişdi. Ona

görə bədbəxt idi ki, şairin həyat və fəaliyyəti çəkişmələr, didişmələlər içində məhv olub gedirdi.

***

“Göygöl” şeirinin üstündə 1925-ci ildə Ə.Cavad 5-6 ay həbsdə saxlanılmışdır. Şeri hətta Moskvada yoxlamışdılar. Bu müddət ərzində şairin başına açılmadığı oyun qalmamışdır. Azərbaycan ədəbiyyatında klassik bir şer nümunəsi sayılan "Göy göl" əsəri öz keyfiyyətlərinə, bədii-estetik xüsusiyyətlərinə görə misilsiz əhəmiyyətə malikdir.

**Əli Saləddin,**
***filologiya elmləri doktoru***

Əhməd Cavad bütün bu sarsıntılardan keçmiş, qanı, canı, ruhu ilə itirəcək-lərinin-sevgisinin, övladlarının, həyatının-qorxusunu dadmış, ağrısını duymuş, “etiraf şeirləri” ndə belə, həqiqətən yan keçə bilməyən bir şairdir. Həm qalib, həm məğlub şairdir. Onu qalib edən şeirləri idi.

**Nərgiz Cabbarlı,**
***filologiya üzrə fəlsəfə doktoru***

Bənzərsiz və təkrar edilməz şair olan Əhməd Cavad istər lirik, istərsə də siyasi şeirlərində coşğun hisləri eyni dərəcədə saxlamağa müvəffəq olurdu.

**Şəlalə Həsənova,**
***Azərbaycan yazıçılar birliyinin üzvü***

Əhməd Cavad qələmindən çıxan şeir, sənət nümunələri xalqın çox ağrılarını özündə əks etdirir.

**Solmaz Məmmədbəyli,**
**N.Gəncəvi adına ədəbiyyat muzeyinin işçisi.**

Bu həmin Cavaddır ki, həyata atıldığı ilk gündən xalqın istiqlalı və Azərbaycanın müstəqilliyi uğrunda mübarizələrə qoşulmuş, “Müsavat” partiyasının liderlərindən biri kimi 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətinin yaradıcı fəallarından olmuşdur. Bu həmin Cavaddır ki, həmin illərdə Azərbaycanın milli şairi və ictimai xadim kimi şöhrətinin səsi-sorağı çox-çox uzaqlardan gəlirdi.

**Rəhman Salmanlı,**
***tədqiqatçı-jurnalist***

Əhməd Cavad yaşadığı çox qısa, lakin şərəfli ömür çərçivəsində yalnız Vətəninin azadlığını, müstəqilliyini, xalqının, millətinin firavanlığını düşünmüşdür.

***

*Arzum budur mənim bir insan kimi,*
*Cavad-Şükriyyəyə heykəl ucalsın!*
*Elə bir heykəl ki, bu cahan kimi,*
*Günəşdən, səmadan daim güc alsın!*

**Sevinc Ədalətqızı,**
***şair-publisist, Cavadşünas***

Vətən müharibəsində qələbəyə gedən yollarda Əhməd Cavad şeirləri, həmin şeirlərə yazılan mahnılar bizə ruh verirdi. Kənd və şəhərlərimizi bir-bir azad edərək zirvələrə Zəfər bayrağımızı hər dəfə sancanda sözləri Əhməd Cavada aid olan dövlət himnimizi bir ağızdan böyük coşqu ilə oxuyardıq. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti və biz varıq, deməli, Əhməd Cavad da qan yaddaşımızda yaşayacaq!

**Elşad Əbilov,**
***Vətən müharibəsinin iştirakçısı polkovnik***

Qarı dünya, gözünü aç, "Qoşma"nı gör, "Göygöl"ü gör,
Yerə-göyə sığışmayan dəyanətdi Əhməd Cavad.
"Vətən!" dedi, "Bayraq!" dedi "Dalğa"sının pıçıltısı,
Azərbaycan, adın boyda məhəbbətdi Əhməd Cavad.
Aşıb-daşan boz selləri uğurundan saxlayandı,
Şər gətirən yolu-izi himnimizlə bağlayandı,
Dağımıza daş atanı "Dağlar"ıyla dağlayandı,
"Azərbaycan!" deyənlərə zəmanətdi Əhməd Cavad,
Nəsillərdən-nəsillərə əmanətdi Əhməd Cavad!

**Rəşid Faxralı,**
***Əməkdar jurnalist, ehtiyatda olan mayor***